**Transfert qiymətləndirilməsi mövzusunda beynəlxalq tədbir**

Bu günlərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən Fransanın paytaxtı Parisdə transfert qiymətləndirilməsi mövzusunda tədbir keçirilmişdir. Tədbirin əsas məqsədi transfert qiymətləndirmə sahəsində mövcud vəziyyətin təhlili və gələcək inkişaf istiqamətlərinin müzakirəsinin aparılmasından ibarət olmuşdur. OECD transfert qiymətləndirilməsi mövzusunda ilk illik beynəlxalq səviyyəli görüşünə dünyanın 80-dən artıq ölkəsinin nümayəndə heyəti qatılmışdır.

OECD-nin Baş katibi Angel Qurrian çıxış edərək, transfert qiymətləndirmə sahəsində və onunla bağlı vergi siyasətinin inkişaf istiqamətlərində olan qlobal problemlərə toxunmuşdur. Qeyd edilmişdir ki, bu gün dünyada beynəlxalq şirkətlər tərəfindən transfert qiymətlərini tətbiq etməklə vergidən yayınma halları ilə əlaqədar transaksiya xərcləri, transfert qiymətlərin qarşılıqlı asılı şəxslərin statusu, «uzadılmış əl» prinsipi və digər müasir iqtisadi anlayışlar daha dərindən mənimsənilməlidir. Bildirilmişdir ki, «uzadılmış əl» prinsipi transfert qiymətləndirmə sahəsində OECD-nin və BMT-nin konvensiyalarında təsdiq edilmiş əsas beynəlxalq standartdır.

Daha sonra transfert qiymətləndirmə sahəsində qarşıya çıxan problemlərin qiymətləndirilməsi və araşdırılması ilə bağlı OECD ekspertlərinin iştirakı ilə disputlar keçirilmişdir.

Tədbirdə iştirak edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi İmran Qarayev görüşə qatılan nümayəndə heyətləri ilə bir sıra görüşlər keçirərək, əməkdaşlıq məsələlərini müzakirə etmişdir. O cümlədən Rusiya Federasiyası, Litva, Latviya, Bolqarıstan, Qazaxıstan, Belçika respublikalarının vergi orqanlarının nümayəndələri ilə qarşılıqlı əməkdaşlığın yaradılması və transfert qiymətləndirmə sahəsində təcrübə mübadiləsinin aparılması məqsədilə bu ölkələrə işçi səfərlərin təşkili ilə bağlı fikir mübadilələri aparılmışdır.

*Qeyd:* Qarşılıqlı əlaqəli müəssisələr arasında aparılan əməliyyatlarda qiymətlərin bazar qiymətlərinə münasibətdə fərqli müəyyən edilməsi transfert qiymətləri adlanır. Transfer qiymətləndirmə o vaxt baş verir ki, hazır məhsul bazara çıxarılmazdan əvvəl transmilli şirkətə daxil olan qarşılıqlı əlaqəli şəxslərə ötürülür. Nəticədə hər transfert mərhələsində məhsul istehsalına çəkilən xərclər süni şəkildə artırılır və transfert qiymətləndirmə prosesi baş verir. Belə qiymətlərin əmələ gəlməsi vergilərin azaldılmasının geniş yayılmış üsullarından biridir.